17 fevral 2021-ci il, çərşənbə XALQ QƏZETİ

# Bir il əvvəlki Münhen konfransı Prezident İlham Əliyevin diplomatik qələbəsi ilə yadda qaldı



***Münhen Təhlükəsizlik Konfransında Prezident İlham Əliyevin Ermənistan baş naziri Nikol Paşinyanla iştirak etdiyi məşhur debatdan 1 il ötür. Beynəlxalq müşahidəçilərin sözlərinə görə, konfransın ən parlaq epizodlarından biri, məhz onların arasında keçirilən debat olmuşdu. Dünyanın maraqla izlədiyi debatlar Azərbaycan Prezidenti İlham Əliyevin aşkar qələbəsi ilə başa çatmış, erməni nazirin isə zəif dövlət adamı olduğunu təsdiqləmişdi.***

Xatırladaq ki, 2020-ci il 14-15 fevral tarixlərində keçirilən 56-cı Münhen Təhlükəsizlik Konfransı çərçivəsində günün aktual məsələləri – böhran, indiki və gələcək beynəlxalq təhlükəsizliklə bağlı çağırışlar müzakirə olunmuşdu. Beynəlxalq əhəmiyyətli tədbirdə böyük dövlətlərin başçıları, diplomatik nümayəndəliklərdən rəsmi şəxsləri beynəlxalq təşkilatların rəhbərləri iştirak etmişdilər. Konfransda 35 dövlət və hökumət başçısı ilə yanaşı, müxtəlif ölkələrin 100-ə yaxın hərbi və xarici siyasət idarələrinin rəhbərləri də müzakirələrə qatılmışdılar. Qeyd etmək yerinə düşər ki, Münhen konfransı 1963-cü ildə NATO-ya üzv ölkələrin “müdafiə qurumları nümayəndələrinin toplantısı” kimi təsis edilmişdi. Konfrans ənənəvi olaraq Münhen şəhərinin tarixi mərkəzində yerləşən “Bayerischer Hof” otelində keçirilir. Bunumla yanaşı, konfrans dünya səviyyəli siyasətçilər və diplomatlar üçün vacib və nisbətən neytral görüş və mühüm müzakirə meydanı da sayılır. Buna görə də, konfrans çərçivəsində panel müzakirələr zamanı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Prezident İlham Əliyev ilə Ermənistan baş naziri Nikol Paşinyan arasında keçirilən debatlar hamı tərəfindən maraqla qarşılanmışdı.

Konfransda müzakirələr zamanı Prezident İlham Əliyev dünya birliyinə Dağlıq Qarabağın tarixi, beynəlxalq hüquq və beynəlxalq ictimaiyyətin mövqeyi kontekstində, məhz Azərbaycan ərazisi olduğunu bildirmişdi. Ölkə başçısı XIX əsrin əvvəlindən başlayaraq, 200 il ərzində imzalanmış çoxsaylı saziş və müqavilələrdən danışdığı halda, Ermənistan baş naziri Nikol Paşinyanın hüquqi cəhətdən əsaslandırılmış fakt ortaya qoya bilməməsi diqqətdən yayınmamışdı. Erməni liderdən fərqli olaraq Prezident İlham Əliyev Dağlıq Qarabağın hüquqi cəhətdən Azərbaycana məxsus olmasını bütün dünyaya bir daha nümayiş etdirməklə yanaşı, münaqişənin necə həll edilməsi haqqında danışmaq üçün məsələnin tarixini əsaslı faktlarla ictimaiyyətə çatdırması N.Paşinyanı çətin vəziyyətə salmışdı.

Debat zamanı N.Paşinyan reallığa uyğun olmayan fikirlər səsləndirməyə çalışsa da, istəyinə nail olmamışdı. Əksinə, Azərbaycan liderinin Qarabağla bağlı irəli sürdüyü real arqumentlər bütün həqiqəti əks etdirmişdi. Buna görə də, erməni baş naziri çətin vəziyyətlə qarşılaşmışdı.

Mütəxəssislər birmənalı şəkildə bildirirdilər ki, Prezident İlham Əliyev intellektual mübarizədə Nikol Paşinyana mat elan etmişdi. Avropa və dünya ictimaiyyətinin gözü qarşısında da ölkə başçısının “Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib və işğal olunmuş torpaqlarda mülki azərbaycanlılara qarşı etnik təmizləmə aparıb, o cümlədən, Xocalı soyqırımını törədib”, – deyə qəti şəkildə səsləndirdiyi bu fikirlər Ermənistan hökumətinin işğalçı siyasətini bir daha gündəmə gətirmişdi.

Münhen debatları həm də bununla əlamətdar olmuşdu ki, Prezident İlham Əliyev erməni diasporunun qondarma Dağlıq Qarabağ rejimini müstəqil və beynəlxalq subyektin tərkib hissəsi olması haqqında apardığı təbliğat strategiyasını da alt-üst etmişdi. Ən əsası, ölkə başçısının tutarlı arqumentlərə söykənərək münaqişəyə dair fikirlərini açıqlaması və təkzibedilməz faktlarla erməni baş nazirini gülünc vəziyyətə salması, eyni zamanda, Azərbaycanın Qarabağ məsələsində prinsipial mövqeyindən bir addım da olsa geri çəkilməcəyini göstərməsi Ermənistanda ciddi narahatlıqla qarşılanmışdı. Xüsusilə də konfrans zamanı Prezident İlham Əliyevin əsaslı faktlarla baş nazir N.Paşinyanı çıxılmaz vəziyyətə salması və hətta N.Paşinyanı fikirlərində səhv etməsinə, “Qarabağın Azərbaycan torpağıdır” deməsinə məcbur etməsi erməni ictimaiyyətində hiddət doğurmuşdu.

Bununla yanaşı, erməni politoloqlar debatlarda N.Paşinyanın zəif arqumentlər irəli sürməkdə günahlandırmışdılar. Debatı diqqətlə incələyən erməni mətbuatı, hətta belə yazmışdı ki, Münhendə kulis arxasında kimin diktə etdiyini, kimin isə baş əydiyini hamı gördü. Erməni mütəxəssislərin debatlarda iştirak edən N.Paşinyanın çıxışı haqqında yekun rəyi belə olmuşdu: “Beynəlxalq auditoriya qarşısına demokrat imici ilə çıxan Paşinyan növbəti dəfə sübut etdi ki, dövlət başçısı üçün tikilən kostyum onun əyninə böyükdür”.

Beynəlxalq müşahidəçilər də N.Paşinyanın heç vaxt diplomatiya ilə məşğul olmadığını, yalnız populizmlə məşğul olmağa öyrəşdiyini diqqətə çəkərək, Ermənistan baş nazirinin böyük siyasi və diplomatik təcrübəyə malik Prezident İlham Əliyev qarşısında cılız göründüyünü qabartmışdılar. Politoloqlar Azərbaycan Prezidentinin dəqiq və prinsipial mövqeyinin olduğunu, Ermənistanın baş nazirinin isə ümumiyyətlə, mövqeyinin olmadığını vurğulayaraq, əlavə etmişdilər ki, N.Paşinyan Qarabağ mövzusunu öz siyasi maraqları naminə istifadə etməyə çalışır. Beynəlxalq ekspertlər erməni baş nazirinin çıxış və addımlarını analiz edərək belə qərara gəlmişdilər ki, rəsmi İrəvan münaqişəni sülh yolu ilə həll etməkdə maraqlı deyil və N.Paşinyan üçün əsas olan problemin həllinin yubadılmasıdır. N.Paşinyan növbəti dəfə Dağlıq Qarabağda yaşayan ermənilərə xüsusi siyasi status istəyini dilə gətirdi. Ancaq Münhen Təhlükəsizlik Konfransında açıq müzakirələrdə Prezident İlham Əliyevin Azərbaycanın mövqeyini ləyaqətlə, bacarıqla və qətiyyətlə ortaya qoyması, heç birimizin şübhə etmədiyimiz həqiqəti bir daha sübuta yetirdi.

Bir sözlə, Münhen debatı tarixə Azərbaycan Prezidenti İlham Əliyevin erməni baş naziri Nikol Paşinyan üzərində diplomatik qələbəsi kimi tarixə düşdü. Ölkə başçısının ikinci daha möhtəşəm qələbəsi isə 44 günlük müharibə zamanı işğal altında olan torpaqlarımızı azad etməsi oldu.

***Səbuhi MƏMMƏDOV,***
***“Xalq qəzeti”***